**Azərbaycan Respublikası Bakı şəhəri**

**Binəqədi Rayon Icra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

№ 125 "29" iyun 2021-ci il

**Binəqədi rayonunda otlaq sahələrində və meşə fondu ərazilərində qabaqlayıcı yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi məqsədi ilə Qərargahın yaradılması barədə**

Rayon ərazisində yanğın təhlükəsizliyinin gücləndirilməsi məqsədi ilə yüksək gərginlikli hava elektrik ötürücü xətlərinin mühafizə zonalarında yerləşən hissələrinin şumlanması, habelə meşə yanğınlarına qarşı mineral zolaqların çəkilməsi, məişət və sənaye tullantılarının həmin ərazilərə atılmaması barədə əhali arasında geniş izahat işlərinin aparılmasını, təhlükəsizlik tələblərini pozan şəxslər barədə qanunvericiliklə müəyyən edilmiş tədbirlərin və digər zəruri təxirəsalınmaz işərin görülməsini təmin edilməsi barəsində 24 iyun 2021-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş tapşırıqların icrası ilə əlaqədar "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.9-cu və 6.8-ci bəndlərini əsas tutaraq

**Qərara alıram:**

1. Rayonda strateji əhəmiyyətli yüksək gərginlikli hava elektrik ötürücü xətlərinin mühafizə zonalarında yerləşən hisələrinin şumlanması, açıq və quru ot sahələrində həmçinin meşə fondu ərzilərində qabaqlayıcı yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi məqsədi ilə aşağıdakı tərkibdə qərargah yaradılsın.

**Qərargahın sədri:**

| | |
|---|---|
| Elxan Allahverdiyev | Binəqədi Rayonu İcra Hakimiyyətininin başçısı |

**Qərargahın üzvləri:**

| | |
|---|---|
| İlqar Süleymanov | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |
| Vüsar İsmayılov | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |
| İskəndər Cahangir-zadə | -Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Yunis Hüseynov | -Hüquq şöbəsinin müdiri |
| Yəhya Əliyev | -Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Azər Kərimov | -Rayon təsərrüfatı şöbəsinin müdiri |
| Aynur Quliyeva | - İnformasiya təminatı və təhlili sektoru |
| Elmin Zamanov | -Binəqədi Rayon MKTB-nin rəisi |
| Rauf Qurbanov | -1-ci Ərazi Dövlət Yanğın Nəzarəti İdarəsinin rəisi |
| Bərədə Heydərov | -Binəqədi Rayon Yanğından Mühafizə İdarəsinin rəisi |
| Elçin Bayramov | -Binəqədi Rayon Sukanal Departamentinin rəisi |
| Teymur Ağazadə | -Binəqədi Elektrik Enerji Təchizatı İdarəsinin rəisi |
| Rasim Həsənov | -Biləcəri Elektrik Enerji Təchizatı İdarəsinin rəisi |
| Vüsal Axundov | -Binəqədi Rayon Polis İdarəsinin birinci müavini |

| | |
|---|---|
| Vasif Əşrəfov | -ETSN 11 saylı regional ekologiya və təbii sərvətlər idarəsinin aparıcı müfəttişi |
| Mübariz Məmmədov | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli SİƏD üzrə nümayəndəsi |
| Dilbər Şükürova | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 nömrəli SİƏD üzrə nümayəndəsi |
| Zaur Qafarov | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə QİƏD üzrə nümayəndəsi |
| Namil Məmmədov | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri QİƏD üzrə nümayəndəsi |
| Qadir Məmmədov | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi QİƏD üzrə nümayəndəsi |
| Teyyub Abdullayev | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən QİƏD üzrə nümayəndəsi |
| Fərid Cəfərov | -Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 28 May QİƏD üzrə nümayəndəsi |

2. Yanğınsöndürən hidrantlarının və su hovuzlarının daim işlək vəziyyətdə saxlanılmasının təmin edilməsi.

3. Binəqədi Elektrik Enerji Təchizatı şöbəsi və Biləcəri Elektrik Enerji Təchizatı şöbəsi yüksək gərginlik elektrik dirəkləri ətrafında yanğına səbəb ola biləcək otların və s. maneələrin təmizlənməsi, yaşayış məntəqələrinin üzərindən keçən elektrik naqillərin daim gərginliyinin tənzimlənməsinin nəzarətdə saxlanılmasının təmin edilməsi.

4. Qərargaha tapşırılsın ki, strateji əhəmiyyətli yüksək gərginlikli hava elektrik ötürücü xətlərinin, rabitə, qaz, digər kommunikasiya xətlərinin keçdiyi yerlərdə, açıq və quru ot sahələrində, qamışlıqda, mazut gölməçələrində baş verə biləcək

yanğın hadisələrin qarşısının alınması məqsədilə həmin sahələrdən yanar məişət tullantılarının, quru otların, kolların təmizlənməsi, habelə meşə zolaqlarının şumlanaraq təhlükəsizlik zolaqlarının çəkilməsi, məişət və sənaye tullantılarının həmin ərazilərə atılmaması barədə əhali və sahibkarlar arasında maarifləndirmə və geniş izahat işlərinin aparılmasını həmçinin təhlükəsizlik tələblərini pozan şəxslər barədə qanunvericiliklə müəyyən edilmiş tədbirlərin və digər zəruri təxirəsalınmaz işlərin görülməsini təmin etsin.

5. Qurum rəhbərlərinə tapşırılsın ki, aidiyyəti qurumlar tərəfindən görülmüş işlərin nəticəsi barədə məlumatların hər həftənin cümə günü olmaqla Qərargaha verilməsi təmin edilsin.

6. Rayon İcra Hakimiyyəti başçısı Apartının İnformasiya təminatı və təhlili sektorunun müdiri Aynur Quliyevaya tapşırılsın ki, görülmüş işlər barədə məlumatları 2021-ci ilin noyabr ayınadək hər ayın 1-də RİAİS vasitəsilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilməsini təmin etsin.

7. Rayon İcra Hakimiyyəti başçısı Apartının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın surətini məsul şəxslərə çatdırılmasını təmin etsin.

8. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**

**Sənədlərlə və vətəndaşların**

**müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN